**Azərbaycan Respublikası və Meksika Birləşmiş Ştatları arasındakı münasibətlər**

**Diplomatik əlaqələrə dair qısa məlumat:**

Azərbaycan Respublikası və Meksika Birləşmiş Ştatları arasındakı diplomatik münasibətlər 1992-ci ilin 10 fevral tarixində qurulmuşdur. Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarındakı Səfirliyi 10 yanvar 2008-ci ildə, Meksika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyi isə 1 oktyabr 2014-cü ildə təsis edilmişdir.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşlər:**
**Xarici İşlər Nazirləri:**

**26 sentyabr 2008-ci il** tarixində Azərbaycan Respublikası Xarici İşlər Naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 62-ci sessiyası zamanı Meksika Birləşmiş Ştatları Xarici İşlər Naziri Patrisia Espinosa Kanteyano ilə görüş keçirmişdir;

**21 sentyabr 2010-cu il** tarixində Azərbaycan Respublikası Xarici İşlər Naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 64-cü sessiyası zamanı Meksika Birləşmiş Ştatları Xarici İşlər Naziri Patrisia Espinosa Kanteyano ilə görüş keçirmişdir;

**27-29 mart 2011-ci il** tarixində Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Meksika Birləşmiş Ştatlarına rəsmi səfər etmişdir;

**19-20 fevral 2012-ci il** tarixində Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Meksika Birləşmiş Ştatlarına işgüzar səfər etmişdir.

**Parlamentlərarası əlaqələr:**

Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan-Meksika parlamentlərarası işçi qrupu fəaliyyət göstərir.

**8 aprel 2010-cu il** tarixində Meksika Konqresinin Deputatlar Palatasında Meksika-Azərbaycan parlamentlərarası işçi qrupu yaradılmış və qrupun hazırda rəhbəri Raymundo Kinq de la Rosadır;

**4 noyabr 2011-ci ildə** "Senatın Asiya-Sakit okean ölkələri üzrə xarici əlaqələr komitəsinin Dağlıq Qarabağ regionunda münaqişəyə dair rəyi" adlı sənəd (Təkliflərlə birgə Razılaşma maddəsi) Meksika Senatında qəbul edilmişdir;

**8 dekabr 2011-ci ildə** Meksika Konqresinin Deputatlar Palatasının sessiyasında "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında" sənəd (Razılaşma Maddəsi) qəbul edilmişdir;

**17-20 iyul 2012-ci ildə** Meksika Konqresinin Deputatlar Palatasının Sədri Oskar Martin Arse Paniaqua və Meksika-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri

Azərbaycana səfər etmişdir.

**Müqavilə-hüquq bazası:**
Azərbaycan Respublikası ilə Meksika Birləşmiş Ştatları arasında 5 sənəd imzalanmışdır.

***Son yenilənmə tarixi: fevral 2016***